# Uşaqlar arasında cinayətkarlığın yayılmasının səbəbləri: Risk faktorları və qoruyucu amillər

**Elxan Heydərli**
*Məzun, Hüquq fakültəsi,*
*Azərbaycan Respublikasının Prezidenti*
*yanında Dövlət İdarəçilik Akademiyası*

Açar sözləri: Cinayətkarlığın səbəbləri, yeniyetmə cinayetkarlığı ve onun növləri, risk və qoruyucu faktorlar.

Annotasiya

Cəmiyyəti daim narahat edən, əslində isə məhz onun məhsulu olan cinayətkarlığın səbəbləri və onunla mübarizə həm keçmişdə, həm də gələcəkdə nəzər-nəqtəsi olub və olacaqdır. Sosiumun rüşeymini və sabahını təşkil edən uşaqların kriminallığı isə xüsusilə narahatlıq doğuran məsələdir. Çünki, bu kateqoriya cinayətkarlıqla bağlı fəaliyyət nə qədər gecikdirilərsə, nəticə də bir o qədər dəhşətli olacaqdır. Bu məqalədə çalışacağıq ki, uşaq cinayətlərinin səbəblərinin beynəlxalq təhlilinə toxunulsun və onunla mübarizə üçün aparılan tədbirlərdən danışılsın. Bu sahədə aparılmış ən son və ən sanballı tədqiqatlar Yeni Zelandiya hüquq ictimaiyyətinə məxsus olduğundan əsas diqqət onlara yönələcəkdir.

Giriş

Biz hal-hazırda yuvenal ədliyyə sahəsində yeni və maraqlı dövrün ortasındayıq. Respublikada ən son Cinayət Məcəlləsinin və Uşaq hüquqları haqqında Qanunun qəbulundan təqribən 15 il ötüb. Sovet dövründəkindən fərqli olan yeni Cinayət Məcəlləsi uşaqlar və yeniyetmələr arasında cinayətkarlığın və residivizmin azaldılmasına doğru atılmış daha mütərəqqi addım hesab olunur. Bu qanunlar qəbul edilərkən bir sıra beynəlxalq aktların, o cümlədən, Uşaq hüquqları haqqında konvensiyanın müddəalarına uyğunlaşdırılmış, minimum standartlar nəzərə alınmışdır. Uşaq Hüquqları Konvensiyasında cinayət məsuliyyətinə cəlb etməyə imkan verən yaş həddi ilə bağlı hər hansı məhdudiyyət yoxdur. Bu hədd müxtəlif ölkələrə nisbətdə dəyişir. Bu hədd İngiltərə və Uelsdə 10, Belçikada 18 (müəyyən cinayətlərə görə 16), Fransada 13 olaraq müəyyən edilmişdir. Buna baxmayaraq, Belçika və Fransada oxşar olaraq, şəxs müəyyən edilən yaş həddinə çatmadıqda və hətta ona cəza təyin edilmədikdə belə, cinayət törətməyə görə azadlıqdan məhrum edilə bilər . Azərbaycan Respublikasının cinayət qanunvericiliyində cinayət məsuliyyətinə cəlb etməyə imkan verən ümumi yaş həddi 16 olaraq müəyyən edilmişdir. Lakin CM-in 20-ci maddənin 2-ci hissəsində göstərilən cinayətlərə görə məsuliyyətin yaş həddi 14-dür . Yetkinlik yaşına çatmayanların törətdiyi cinayətə görə tətbiq edilən cəza növləri və tərbiyəvi xarakterli məcburiyyət tədbirləri isə BMT Baş Məclisinin 29 noyabr 1985-ci il tarixdə qəbul etdiyi “Yetkinlik yaşına çatmayanlar barəsində ədalət mühakiməsinin həyata keçirilməsi ilə əlaqədar minimum standart qaydalar”a uyğunlaşdırılaraq Cinayət Məcəlləsinə salınmışdır .

İndi biz həmçinin beynəlxalq müstəvidə də uşaq cinayətkarlığının qarşısının alınması sahəsində tədqiqatlar aparılmasının şahidi oluruq. Bu araşdırmaların əsas mahiyyəti uşaqlar arasında cinayətkarlığın səbəbləri, onun yayılması halları, risk faktorları və ona qarşı mübarizə üzərində köklənmişdir. Dünya ölkələri bu tip cinayətkarlığın qarşısının alınması üçün xərclənən hər bir dolların daha səmərəli nəticə verməsi üçün əllərindən gələni edirlər . Məsələn, Yeni Zelandiyada 1989-cu ildə qəbul edilmiş Uşaqlar, gənclər və onların ailələri haqqında Akt artıq 20 ildir ki işləyir və çox mühüm nailiyyətlər qazanılmışdır, hətta digər dövlətlər və beynəlxalq təşkilatlar normativ akt tərtib edərkən bu qanuna istinad edib təcrübədən faydalanırlar. Bu sahədə aparılmış

tədqiqatların nəticələri arasında ən önəmlisi "Bir tədbir heç də bütün növ əməllərə tətbiq oluna bilməz" prinsipidir, çünki uşaqlar arasında cinayətkarlığın müxtəlif tipləri və səbəbləri mövcuddur və hər bir tip və ya səbəb üçün ayrıca təsir tədbiri görülməlidir. Xarici ölkələrin praktikasında həyata keçirilən tədbirlər sistemi bir növ istisna olmaqla qalan bütün tiplərdə faydasını vermişdir ki, bu istisna da zorakı cinayətlərlə bağlıdır.

Statistikaya əsasən, uşaqlar arasında şiddət cinayətlərinin artması bütün yaş qruplarında müşahidə olunur. Ümumiyyətlə, bütün yaş qrupları üçün zorakı cinayətlərin nisbətlərində artım məişət zorakılığının artması ilə əlaqələndirilir.

Yeniyetmələrdə vəziyyət bir qədər fərqlidir. Yuvenal cinayətkarlıq statistikasına əsasən 2004-cü ildən bəri qəsdən sağlamlığa zərər vurma ilə bağlı zorakı cinayətlərdə kəskin artım müşahidə edilib. Bu artımlar göz ardı edilə bilməz. 14-16 yaş qrupuna daxil olan yeniyetmələrin sayında azalma olsa da, zorakılıqla törədilən cinayətlərin sayında yüksəlmə qeydə alınıb. Bu da ədliyyə orqanlarını narahat edən faktorlardan biridir .

Yeni Zelandiyada aparılmış araşdırmalara əsasən gənc kişilərin hər dördündən biri ən azı bir cinayət törədib. Bu rəqəmin təxminən 80%-i bir və ya iki cinayət törədir. Qalan 20% yeniyetmələr cinayətkarlığın 80%-i üçün məsuliyyət daşıyır. Bu tendensiya təkcə Yeni Zelandiyada deyil, bütün dünyada müşahidə olunur. Bu kütlə bizim diqqətimizin yönələcəyi hissədir. Nə üçün bəzi yeniyetmələr ümumiyyətlə cinayət törətmədikləri halda bəziləri bir və ya iki cinayət törədir və ya özünə cinayətkar karyera formalaşdırır? Cavab cinayətkarlığın risk faktorları və ona qarşı mübarizə faktorlarının analizində meydana çıxır ki, insanı cinayətə təhrik edən bu faktlar arasında sosioloji, bioloji və ətraf mühit əsas rol oynayır .

Gövdə: Yeni Zelandiyada risk və qoruyucu amillər üzərində aparılmış tədqiqatlar nəticəsində geniş məlumat bazası toplanmışdır. Bu sahədə iki uzunmüddətli araşdırma mövcuddur. Dunedin Tədqiqatı 1972 və 1973-cü illərdə Dunedin rayonunda doğulmuş 1037 şəxsin həyatı ilə bağlı aparılmış araşdırmadır. Tədqiqat obyekti olan insanların həyatı və orada baş verən hadisələr müəyyən intervallarla qiymətləndirilimişdir. Bu araşdırma nəticəsində cinayətkarlığın risk və qoruyucu amilləri barəsində çoxlu informasiya toplanmışdır. Bənzər olaraq Christchurch Sağlamlıq və İnkişaf proqaramı da 1970-ci illərin ortalarında Christchurch rayonunda doğulmuş 1265 şəxs üzərində aparılmışdır. Bu proqramlar nəticəsində məlum olmuşdur ki, yeniyetmə cinayətkarlığı iki inkişaf yolundan birini izləyir.

1. Həyat boyu davam edən cinayətkarlıq

Bu kateqoriyaya daxil olan şəxslər erkən yaşlarından, hətta 2 yaşından kəskin davranış problemləri nümayiş etdirən şəxslərdir. Onların həyatı ailə disfunksionallığı da daxil olmaqla bir sıra mənfi təsirlərə məruz qalır. Bu şəxslər zəif idraki çatışmazlıqlar, çətin temperament və ya hiperaktivlik göstərirlər. Qeyri-kafi yetişdirmə, zorakılıq və ya digər travmaya məruz qalma, kasıblıq və ailə bağlarının qırılması kimi digər ətraf mühit amilləri bir araya gəldikdə həmin şəxslərin beyinlərinin sosial davranış üçün məsul olan hissəsinə pis yöndə təsir göstərirlər . Həyat boyu cinayətkar qrupuna aid olan şəxslər "davranış pozğunluğu" olan insan kimi təsvir olunurlar. Onlar aqqressiv, müxalif və zorakı ola bilirlər. Bu şəxslərdə günah, vicdan əzabı və ya zərərçəkənə qarşı empati duyğuları adətən çatışmır və onlar hərəkətlərinin nəticələrini düşünmədən yalnız həzz almaq üçün cinayət əməlləri törədirlər. Əgər dərhal qarşısı alınmazsa, bu kimi davranışlar bütün həyatı əhatə edəcək. Yeni Zelandiya Uşaq Məhkəməsinin praktkasına əsasən həyat boyu mövcud olan cinayətkarlıq kateqoriyasına daxil olan şəxslərin 82%-i kişilərdir, ki bunların da 50%-i kəndlərdə yaşayan aborigen Maori tayfasının nümayəndələridir. Bu şəxslərin 80%-ə qədəri məktəb təhsili görməyən və 75-80%-i alkoqollu içki və ya narkotik maddə qəbul edənlərdir. Həmçinin, onlarda psixoloji və psixiatrik məsələlərdə eyni xarakter daşıyır .

2. Yeniyetmə başlanğıc cinayətkarlığı

Bu yol çox daha böyük bir qrupu (bütün uşaq cinayətkarların 80%-i) özündə cəmləşdirir. Bu qrupa daxil olan cinayətkarların həyatı pozulmuş hesab edilmir və onlar uşaqlıq dövründə anti-sosial disproporsional davranışa meylli olmurlar. Ancaq yeniyetməlik dövründə bihevioral problemlər baş qaldırmağa başlayır. Cinayətkarlığın səbəbləri arasında nevro inkişaf proseslərindən çox anti-sosial dost qruplarına qoşulma, qeyri-adekvat yetişdirmə və

ya narkotik maddələr ələlxüsus da xaşxaş qəbuluna açıq qalma əsas rol oynayır . Bu kateqoriyaya daxil olan şəxslər sayca çoxdurlar və özlərinin ömürlük cinayətkar dostlarından fərqli olaraq normal hisslər və vicdan əzabı keçirirlər, çalışırlar ki, hər şeyi qaytarıb yoluna qoysunlar. Yuvenal cinayətkarlığın səbəbləri və həlli yollarını axtararkən bu iki kateqoriyanı yadda saxlamaq çox vacibdir. Onların müxtəlif xarakteristikası müxtəlif səbəblərin olduğunu göstərir və deməli həll yolları da fərqli olacaqdır.

3. Uşaq cinayətkarlığının səbəbləri necə müəyyən edilir?

Uşaq cinayətkarlığının səbəblərinin araşdırılması risk və qoruyucu faktorların analizini tələb edir. Risk faktoru gənc şəxsin cinayət törətmə ehtimalını müəyyən edir. Risk faktorları 5 qrupa bölünür: fərdi-xarakteristik, ailə, məktəb/iş, dost assosiyasiyaları və nəhayət bioloji. Uşaq və ya yeniyetmələr nə qədər çox faktorlara məruz qalarlarsa, bir o qədər cinayət törətməyə yaxın olurlar. Yalnız bir faktorun mövcudluğu çətin ki cinayətə gətirib çıxarsın. Christchurch Uzunmüddətli Proqramı müəyyən etmişdir ki, 19 və daha çox risk faktoru olan ailələrdən gələn uşaqlar yeniyetmələr kimi 6 və daha az risk faktoru olan uşaqlara nisbətdə 100 dəfə çox cinayətə meyllidirlər .

Qoruyucu amillər cinayətkarlıq riski ilə mübarizə aparan bir gəncin həyatına müsbət təsirlərdir. Qoruyucu amillər bəzən möhkəmlik formalaşdıran amillər kimi xarakterizə olunur.

Çoxlu risk faktorlarının mövcudluğu uşağın cinayət törətmə ehtimalını artırması ehtimalı doğrudur, lakin bu faktorların heç də hamısı eyni dərəcədə şəxsi cinayətə təşviq etmir. Ailə üzvləri ilə zəif əlaqələr kimi bəzi faktorlar birbaşa səbəblərdən sayılır. Yoxsulluq və ya valideynlər arasında münaqişə kimi digər risk faktorları cinayətkarlığın daha dolayı səbəblərinə aid edilir. Hansı səbəbin əvvəlcədən birbaşa cinayətə gətirib çıxarmasını müəyyənləşdirmək çətindir və əlbəttə ki, bu, şəxslərə görə dəyişir. Artıq cinayət törətmiş fərdə nəzər yetirib onun cinayət əməlini törətməsinə səbəb olmuş faktoru isə müəyyənləşdirmək mümkündür. Amma populyasiya səviyyəsində, bizim əldə edə biləcəyimiz ən yaxşı informasiya cinayətkarlıq üçün risk faktorlarının öyrənilməsidir. Anti-sosial və ya cinayətkar davranışın səbəbi kimi göstərilə biləcək heç bir tək faktor yoxdur. Cinayətkarlığın dolaşıq kökləri daha dəqiq desək, uşaqların həyatına hopub birgə fəaliyyət göstərən risk faktorlarının mövcudluğunda və əhəmiyyətli qoruyucu faktorların çatışmazlığında tapıla bilər .

Risk qrupunda olan gənclərlə işləyən təşkilatların işi üçün bu informasiya çox vacib əhəmiyyət kəsb edir. Bu təşkilatların risk qrupundakı gənclərlə işi üçün, bu məlumat xüsusilə aktualdır. Risk faktorları haqqında anlayış cinayətkarlığa meylli olan gənclərin müəyyənləşdirilməsi üçün daha mütərəqqi bir sistem işlənib hazırlanmasına gətirib çıxaracaq.

Ömürlük cinayətkar kateqoriyasına daxil olan uşaqlar üçün risk faktorları yeniyetməliklə xarakterizə olunan cinayətkar qrupuna aid olan uşaqların risk faktorlarından adətən fərqlənir. Ömürlük cinayətkar olacaq olan uşaqların cinayətkarlığının əsas səbəbi onların erkən uşaqlıqdan mövcud olan nevro-inkişafı ilə əlaqədar olan elementlərdir. Bu qrupa daxil olan şəxslərin cinayətkarlığının risk faktorları ev və ailədən gəlir ki, bura aiddir: kasıblıq, ailənin dağılması, keyfiyyətli münasibətin olmaması və s.

Yeniyetməliklə əlaqədar olan cinayətkarlığın risk faktorları isə demək olar ki, onların həmin vəziyyətdəki sosial mühiti ilə bağlı olur: cinayətə meylli dostlar, narkotika və alkoqol qəbulu, ailədə müvəqqəti disfunksiya və s. Lakin bu heç də o demək deyildir ki, bu faktorlar sırf pozulmaz qaydada qruplaşdırılmışdır. Belə ki, məsələn, dost faktoru hər iki kateqoriyada da risk elementi ola bilər. İndi isə çalışacağıq ki, ayrı-ayrı risk faktorlarını təhlil edək.

4.1 Fərdi risk faktorları: davranış pozğunluğu

Müxtəlif inkişaf mərhələlərində uşaqların çətin idarə olunan davranış nümayiş etdirmələri normal qarşılansa da, bəzi uşaqlarda və yeniyetmələrdə yaş dövrünə uyğun gəlməyən daha pis davranış müşahidə olunur. Bunlar daha çox təcavüz, düşmənçilik, idarəçilik əleyhinə qayda pozulması, və ya ifrat anti-sosial davranış ilə xarakterizə olunur. Bu davranış davamlı, şiddətli və onların ətrafındakı insanlara mənfi təsirlə nəticələnirsə, o zaman onların davranış pozğunluğu olduğunu deyə bilərik . Keçirilmiş uzun müddətli araşdırmalar nəticəsində məlum olmuşdur ki, davranış pozğunluğu cinayətkarlığın artmasının əsas amillərindəndir.

Davranış pozğunluğu nümayiş etdirən uşaqlar adətən sosial, iqtisadi və bir sıra digər sahədə çatışmazlığı olan ailə mühitindən gəlirlər. Tədqiqatlar göstərib ki, yalnız bir mənfi cəhə-

tin deyil, bütövlükdə çatışmazlıqlar çoxluğu cinayətə gətirib çıxarır. Müəyyən olunmuşdur ki, 3-17 yaş arası uşaqların 5-10%-də davranış pozğunluğu vardır ki, bunların da 75%-i kişi cinsinə mənsubdur. Bütün ömürlük cinayətkar kateqoriyasına daxil olan uşaqlarda davranış pozğunluğu olduğunu deyə bilərik .

4.2 Ailə risk faktorları

Ailələr uşağın cinayətkar kimi yetişməsində çox böyük risk faktorudur. Müsbət ailə mühiti yeniyetmənin sağlam həyatının formalaşmasında nəhəng rol oynayır. Əksinə, mənfi mühit anti-sosial davranış və cinayət əməli üçün əhəmiyyətli bir risk faktoru ola bilər. Ailə risk faktorlarının ömürlük cinayətkarlıq və ya yeniyetməliklə xarakterizə olunan cinayətkarlıq kateqoriyalarında fərqli təsiri vardır. Birinci qrupa daxil olan şəxslərin həyatında hələ erkən yaşlarında bir sıra problemlər birlikdə və birdən meydana çıxdığına görə beyinin sosial davranış üçün məsul olan bölməsinə daha güclü mənfi təsir göstərir. Onlar kiçik yaşlarında zorakılığa, kasıblığa və zəif münasibətə məruz qalırlar. Problemli erkən təcrübə isə uşağın inkişafını yavaşladan və normal ünsiyyət qurmasına mane olan bir təbəqə kimi get-gedə qalınlaşır . Christchurch Sağlamlıq və İnkişaf Proqramının araşdırmalarına müvafiq olaraq erkən yaşda zorakılıq və istismara məruz qalma uşaq cinayətkarlığının təhlükəsinin artmasına gətirib çıxarır.

Uşaq Məhkəmələrinin praktikasından adətən qeyri-stabil və səfil həyat tərzi sürən ailələrdən çıxan uşaqların cinayətkarlığa meylli olduğu aydın görünür. Hətta tez-tez köçən ailələrdən gələn uşaqlar normal dost mühiti yarada bilmədiklərinə, müntəzəm olaraq məktəb dəyişdirdiklərinə görə ünsiyyət qurma bacarığı da zəifləyir .

Yeniyetməliklə əlaqədar olan cinayətkarlar üçün, ailə risk faktorları və cinayət əməli arasındakı əlaqə bir qədər fərqlidir. Adətən bu şəxslərin uşaqlıq boyu ailələri ilə bərabər müsbət təcrübələri olur. Yeniyetməliyin sonrakı mərhələsində isə nəzarətin olmaması, ağlabatan qaydaların və ardıcıl nəticələrin olmaması digər risk faktorları ilə birləşərək cinayətə səbəb olur.

4.3 Təhsil risk faktorları

Uşaq Məhkəməsinin perspektivindən aydın görünür ki, təhsil və ya peşə fəaliyyətinə cəlb edilməmə ilə uşaq və yeniyetmələr tərəfindən ciddi cinayət əməllərinin törədilməsində birbaşa əlaqə vardır . Bu uşaq cinayətkarlığının hər iki kateqoriyası üçün keçərlidir, lakin adətən yeniyetməliklə əlaqədar olan cinayətkarlıqla daha çox əlaqəlidir.  Məktəb nəinki insanı uğur və xoşbəxt gələcəyə aparan akademik bacarıqlarla təmin edir, o həm də sosial yönümlü davranış formalaşdırır, dostluq münasibətləri yaradır və ən əsası cəmiyyətə məxsusluq hissi aşılayır.  Bütün bunlar mənliyin inkişafına kömək edir. Məktəblər uşağı bir neçə saatlığına məşğul saxlayır.  Məhz bu səbəbdən, məktəbə getməyən uşaqlarda anti-sosial davranışın müşahidə olunması təəccüb doğurmur. Maraqlıdır ki, aparılan tədqiqatlardan biri bu nəticəyə gəlmişdir ki, uşağı cinayətkarlıqdan uzaq tutan onun təhsil nailiyyətləri deyil, orada iştirak etməsi və məşğul olmasıdır .

4.4 “Dost” risk faktorları

“Dost” risk faktorları o zaman yaranır ki, bir uşaq və ya yeniyetmə artıq cinayətə qurşanmış və ya anti-sosial davranış nümayiş etdirən şəxslə dostlaşır. Araşdırmalar göstərir ki, anti-sosial dostlarla münasibət qurulması cinayət törədilməsi ehtimalını artırır . Anti-sosial həmyaşıdlarla bağlı risk müsbət uşaqlıqla xarakterizə olunan yeniyetməliklə əlaqədar olan cinayətkar kateqoriyasına daxil olan uşaqlar üçün böyük rol oynayır. Onlar həddi-büluğa çatdıqca ailənin təsiri azalır və həmyaşıdlarının təsiri artır. Faktiki olaraq, uşaqlar arasında cinayətkarlığın risk faktorları arasında ən güclüsü asosial həmyaşıdalarla dostluq qurulmasıdır .

Anti-sosial həmyaşıdların mənfi təsiri həmiçinin ömürlük cinayətkar kimi xarakterizə olunan uşaqlarda da mövcuddur. Uşaq psixologiyası adətən tez böyüməyə istiqamətlənir və onlar üçün anti-sosial yeniyetmələrin cinayətkar davranışları bir növ örnək olur. Çünki uşaqlar digərlərinin belə əməllərini yetkinlik və müstəqillik əlaməti kimi qəbul edirlər və nəticə də onlarla ünsiyyət qurub onlara bənzəməyə çalışırlar . 905 uşaq arasında kiçik bir tədqiqat sübut edib ki, kiçik yaşlarında onlar özlərindən böyük yeniyetmələrin aqqressiv davranışlarını sevmədikləri halda, yaş artdıqca bu hərəkətləri təqdir edir və onları yüksək sosial statuslu şəxs kimi görürülər .

4.5 Bioloji risk faktorları

Uşaqlar tərəfindən cinayətlərin törədilməsində bioloji risk faktorlarının rolu bir qədər mürəkkəbdir və hələ də bu iki məsələ

arasındakı əlaqə anlaşılmağa çalışılır. Bura genetika, nevro-əlaqə və nevrobiologiya və psixi sağlamlıq problemlərinin öyrənilməsi daxildir. Gen və cinayətkarlıq arasındakı əlaqə hazırda çox maraqlı tədqiqat mövzusudur. Bir sıra tədqiqatlar sübut edir ki, bəzi cinayətkar əməllərin törədilməsi irsi mənşəli ola bilər. Bu əlaqə ömürlük cinayətkar qrupuna daxil olan uşaqlarda yeniyetməliklə xarakterizə olunan cinayətkarlardan daha güclüdür . Dunedin Uzunmüddətli Araşdırma Proqramı monoamin oksidaz adlanan fermentin aşağı səviyyədə olması ilə zorakı və anti-sosial davranış arasında əlaqə olduğunu tapıb. Zəif psixi sağlamlıq Uşaq Məhkəməsində tez-tez rast gəlinən bir məsələdir. Bu risk faktoru həm yeniyetməliklə əlaqədar olan, həm də ömür boyu davam edən cinayətkarlarda var. Uşaq Məhkəməsi qarşısında olan bir çox uşaqlar narahatlıq və depressiyadan tutmuş şizofreniyaya qədər qədər psixi sağlamlıq problemləri nümayiş etdirirlər .

Qoruyucu amillər

Yuxarıda sadalanan risk faktorları uşağın cinayət törətmə riskini artıra bilər. Lakin bu hekayənin sonu deyil. Bir çox risk faktoru olan uşaqların heç də hamısı cinayətkar olmurlar. Yeniyetmənin həyatında müsbət təsirin mövcud olması bütün risk faktorlarının qarşısını almağa kifayət edir. Bu müsbət amillər cinayətkarlıq riskinə qarşı "qoruyucu" olduğu ifadə edilir və yeniyetmə şəxsin həyatında onların iştirakı çətinliklərə qarşı möhkəmlik təşviq edə bilər.

Qoruyucu amillərin öyrənilməsi və tətbiqi risk faktorlarını aradan qaldırması çətin olduğundan önəmlidir. Müsbət əlaqələrin yaradılması, ictimiyyətlə münasibətlərin formalaşdırılması kimi təsir metodları anti-sosial dostlarla əlaqəni kəsməkdən və ya ailənin pis iqtisadi durumunu aradan qaldırmaqdan daha asan və effektivdir. Risk və qoruyucu faktorlar arasında əlaqələr son dərəcə mürəkkəbdir. Məsələn, araşdırmalar sübut edir ki, adekvat valideyn nəzarəti (uşağın harada olduğunu bilmək) uşaq cinayətkarlığına qarşı qoruyucu təsir göstərir, lakin bu əlaqələr aşağı sosial-iqtisadi qruplar arasında güclüdür. Tədqiqatçılar aşağı sosial-iqtisadi qruplar arasında nəzarətin qayğı və narahatlıq əlaməti kimi göründüyü qənaətinə gəliblər. Yüksək sosial-iqtisadi qruplarda isə valideyn nəzarəti eyni effekti vermir. Belə ki, bu qruplarda eyni tədbir uşağa inamsızlıq kimi qəbul edilir .

Anti-sosial həmyaşıdları ilə assosiasiya yeniyetmə cinayətkarlar üçün güclü risk faktoru kimi müəyyən edilməsinə baxmayaraq ailə və ya məktəblə əlaqənin, adekvat valideyn monitorinqinin mövcudluğu bu faktoru yavaş-yavaş aradan sıxışdırıb çıxarır. Bir tədqiqat anti-sosial dost qrupunun yalnız valideynlərlə uşağın münasibətləri pozulduğu zaman yarandığı nəticəsinə gəlib . Müəyyən edilmişdir ki, hətta bir valideynlə güclü əlaqələrin mövcudluğu daha az davranış problemlərinə gətirib çıxara bilər. Ki bu da olmadıqda, bir qardaşı və ya uzaq ailə üzvü ilə güclü əlaqələr də köməyə yetir . Cinayət risk faktorlarına qarşı digər bir qoruyucu element cəmiyyətlə əlaqələrin mövcudluğudur. İctimai fəallıq 3 istiqamətdə neqativ təsirlərin qarşısını ala bilər:

1) Disfunksional ailədə öyrənilə bilməyən önləyici sosial bacarıqlara yiyələnmə;

2) Daha yaxşı dostlarla və onların valideynləri ilə ünsiyyət qurulması;

3) İctimaiyyətlə münasibətlərə təşviq edilmə.

Sosiumla əlaqələr idman komandaları, mədəni qruplar və ya normal dini qruplar kimi müxtəlif ictimai tədbirlər vasitəsilə yaradıla bilər. Maraqlıdır ki, bir tədqiqatda vurğulanır ki, belə əlaqə ictimai fəaliyyətdən əldə olunan xeyir onun təşkil olunma səviyyəsi və strukturundan asılıdır. Struktur nə qədər aşağı səviyyəli olursa, anti-sosial davranışlar da bir o qədər güclü olur .

Xülasə: Uşaq cinayətkarlığı ilə bağlı davamlı tədbirlərin görülməsi və bu sahədə dövlət orqanlarının beynəlxalq təcrübədən faydalanması öz bəhrəsini gec yox, növbəti nəsildə verə bilər. Əslində, sosial, iqtisadi və mədəni sahədə bütöv tədbirlər kompleksi Azərbaycan Respublikasında bir proqram şəklində qəbul olunaraq icra olunsa, o zaman uşaqlar üçün daha işıqlı və kriminallıqdan uzaq bir gələcəkdən danışa bilərik.

İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT SİYAHISI

1. Azərbaycan Respublikasının Cinayət Məcəlləsi. http://www.e-qanun.az/code/11

2. Səməndərov F.Y. Cinayət hüququ. Ümumi hissə. "Digesta" nəşriyyatı, s. 566-567 (2007)

3. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. Cinayətkarlıq və

hüquqpozmalar - http://www.stat.gov.az/source/crimes/
4. Laura Janes. Criminal liability of minors and severity of penalties: European trends and developments/ http://www.europeanrights.eu/public/commenti/LauraJanes_en.pdf
5. McLaren, K. Tough is not enough. Published Ministry of Youth Affairs, p.20, (2000)
6. Youth Justice – Ministry of Justice, New Zeland -http://www.justice.govt.nz/policy/crime-prevention/youth-justice
7. Advisory Group on Conduct Problems Conduct Problems- Best Practice Report. Published by the Ministry of Social Development, p. 1 (2009) .
8. Moffitt, T. Life-Course-Persistent versus Adolescence-Limited Antisocial Behavior. In Developmental Psychopathology. (2nd Ed) Vol. 3, Ed. Cicchetti & Cohen. Chapter 15, p. 571.
9. Fergusson, D.M. & Lunskey, M.T. Adolescent Resiliency to Family Adversity. Journal of Child Psychology and Psychiatry, Vol 37, no. 3, p. 281-292, (1996)
10. Risk and Protective Factors. Published by the UK Youth Justice Board 2005, p. 6.
11. Fergusson, M. et al. Ethnicity and Bias in Police Contact Statistics. (1993) In Australian and New Zealand Journal of Criminology 26: p. 193-206
12. Mahoney, JL. & Stattin, H. Leisure activities and adolescent antisocial behavor: The role of structure and social context. (2000) Journal of Adolescence, V. 23, p. 113-127
13. Ary, DV et al. Adolescent Problem Behavior: The Influence of Parents and Peers. In Behaviour Research and Therapy, p. 37.
14. Fergusson, DM. Horwood, LJ. Lynsky, MT. The childhoods of multiple problem adolescents: A 15 year longitudinal study. Journal of Child Psychology & Psychiatry. 1994;35(6):1123-40
15. Fergusson, D.M. & Lynskey, M.T. (1997) Physical punishment/maltreatment during childhood and adjustment in young adulthood. Child Abuse & Neglect, Vol. 21, No. 7.
16. Caspi, A. McClay, J. Moffitt, TE. et al. Role of genotype in the cycle of violence in maltreatedchildren. Science 2002; p. 297:851-854
17. Teplin, L. Pyschiatric disorders of juveniles in detention. Justice Bulletin. 2006 p. 54.

